# "BİR AD VAR HAQQINDA YAZMAMAQ OLMAZ..."

***Hər vaxtınız xeyir, əziz Əlirza müəllim və "Kredo" kollektivi. Atalarımız "Aşıq, üz görən yerə" - deyiblər. Hər dəfə nə edəcəyimi bilməyəndə sizə üz tuturam. "Bir ad var" haqqında yazmamaq olmaz..." adlı bu yazını sizə göndərir və çap etməyi lazım bilsəniz çox şad olaram.***

***Hörmətlə: Nübar ELDARQIZI***
***28.05.22***

Sərvaz Hüseynoğlunun "Ədəbiyyat qəzeti"ndə çap olunmuş şeirləri haqqında bir oxucu kimi düşündüklərimi yazmaq istəyi elə səhər tezdən, FB-yə daxil olan kimi qarşıma çıxan şeirləri oxuyanda yarandı. Birbaşa dilimdə bitən sözləri gəldiyi kimi yazmaq elə də asan olmadı. Çünki məni tutan bəndləri, misraları, deyimləri vasitəsiz nitq kimi vermək üçün onları qeyd etməliydim. Amma, yox, dedim, bu ovqat hələm-hələm yaranmaz, yaz, dedim özümə, yaz!..

Və yazdım: -Oxuduğum ilk şeir "Yadındamı" adlanır. Sərvaz Hüseynoğlu bu şeiri ilə qan yaddaşının dərinliklərinə enir, Nəmrud olduğu vaxtlarda Allahın rəhm edərək onu əvvəl sevdiyi qulu İbrahimə, sonra Yəquba, daha sonra Yusifə çevirdiyi vaxtları xatırlayır. Qardaşlarının Yusifi qırx arşınlıq quyuya atdığı vaxtda çəkdiyi əzabları yada salır. Qardaşın qardaşa qıydığı insanlıq suçu onu yenidən Nəmruda dönməyə təhrik etsə də... dönmür!

İnsana sevgi onu ilk öncə Züleyxanı bağışlamağa və sevməyə, Məcnun olarkən Leyliyə əbədi, ölməz sevgi bəsləməyə qədər ucaldır. Bəs bu mərtəbədə şairi incidən nədir?!

...Əlimdə küt bir bıçaq,
Önümdə doğmamın başı...
Dəfn etmək olmayır,qadın,
Bu xaraba yaranışı!..

-Hə, deməк, İnsan olmaq,insanlığı xilas etməyə bəs etmir... Əsl dərd budur!

Nizamidən, Füzulidən üzü bu yana şairlərin çəkə-çəkə bitirə bilmədiyi dərd!..

"Bir ad var, mən onu çəkə bilmirəm" lirik şeirdir. Həmişə gənc olan ruhumuz bəzən bizə bizdən xəbərsiz sürprizlər edir. Elə vaxtda, zamanda qarşımıza elə birini çıxarır ki,"başımız, beynimiz onu pünhan tutmağa" məcbur olur.

Necə ki, Qaracaoğlan "Desəm öldürərlər, deməsəm ölləm!" - deyirdi, Sərvaz da "Bir ad var,mən onu çəkə bilmirəm! - deyir. O adı çəkə bilməsə də,- şair, ona olan hisslərini gizləmək iqtidarında deyil;

- Ürəkdə ərk yeri bir ad yaşayır...

Bəli, duyğularından xəbərsiz sevdiyini qəlbində qınaya, məzəmmət edə bilirsən: - Bilsəydim, bilsəydim,kimdə itirib,
Kimdə arayırsan, sən məni, kimdə?!

Hamımızın zəif nöqtələri var, bizi istəməyənlər, hətta, şəxsimizi tanımayan, heç bir pislik etmədiyimiz adamlar belə bizə qiyabi düşmən ola bilir. Bu zamanlarda biz pisimizlə yaxşımızla əyrisini, düzünü bildiyimiz adamlara sığınmağı üstün bilirik. Necə ki, dünyanı bəzən cəhənnəm hesab etsək də, cənnət haqqında eşitdiklərimizə inanıb ölmək istəmirik.

- Bilim ki, ürəyin mənlə döyünür,
Bilim zülmün altda amandayam mən!

S.Hüseynoğlunun "Gərək inciməyək" şeirində isə ətrafında olan, ondan kömək uman, ümid evi kimi baxan insanlara yardım edə bilməməkdən doğan üzüntünü, təəssüf hissini görürük.

-Soyuq baxışlar var hələ dünyada,
Çox qapı dəstəyi buzdu,ayazdı...

-Divar qapıların,lay qapıların, hasar qapıların dalında nə qədər bükük boyunlar var...

Nə qədər insanın taleyi, arzusu o qapıların açılmasına bağlıdır.

Bu üzdəki lal harayları o üzdəki kar qulaqlar eşitmir axı...

Bəs nəyə arxayındır o tərəfdəkilər?

Ruhunu, cismini, arzularını öldürdükləri insanların "qayıtmamasına..." Əli hər yerdən üzulən şairin qəribə bir istəyi var: - Gələ, peyda ola Şeyx Nəsrullah; - Adam dirildirəm, - deyə, camaat!..

Məqsəd nədir bəs?

- Zalımlar, zülmkarlar bilsələr ki, günahları ilə elə bu dünyada üzləşəcəklər, bəlkə dünyada zülmün kökü kəsilərdi...

Bəli, bu gün Sərvaz Hüseynoğlunun şeirlərini oxuduqca "Dünyanın ağlımızdan dayaz olmasına" inandım...

Tanıdığım qədər,sakit təbiətli şairin şeirlərində bir müdriklik, təmkin, sanbal olsa da, sevdiklərinə ziyan vuracaq soyuğun, sazağın əsdiyi səmtə özünü divar edəcək qədər əzmi, mətanəti olduğunu da gördüm...

Qələmi ilə Bisitun dağını belə parçalaya biləcək şair, "Tanrıların yerdə bitdiyini" görəndən sonra "əli göydə qalan" bəndələrdən biri kimi təəssüf hissi ilə deyir: - Mən kiməm arxalı dağlar yanında.

Sözümün dalında yumruğum durmur...

Hər gün eşitdiyimiz qara xəbərlər, gördüyünüz, bildiyimiz, istəməyərək sürükləndiyimiz haqsız davalarda itirdiyimiz saflığımız, təmizliyimiz nəhayət, hamımızın ortaq olduğu günahlardan sonra sustalıb əli yanına düşən şair necə də əzabla etiraf edir: - Etdiyin günahlar dura üzünə və sən heç dirilmək istəməyəsən...

Qaynayan bir boya qazanına düşüb ordan ağ çıxmaq mümkün deyil. "Ağlımızdan dayaz" olduğuna görə dünya bunu bilməsə də,şair bilir. Hər kəsin tutumuna görə dərdi var... Atəş olsan,- boyun qədər yer yaxarsan! - deyib atalar,amma şair, - adi insanlardan daha çox dərdə düskun olduguna görə daha çox yanır,daha gec sönür...

Dərdini anlayacaq həmdərd axtarmaq ən adi, normal insani haldır, amma həssas şairə bu da asan deyil.

-Sabah dodağına düdük qoymayan,
Quyu axtarırsan,yoxdu o quyu...

Yaşımız artdıqca çox təəsüf ki,itkilərimiz də artır. Günahlarımız bəlkə savablarımızdan daha sürətlə çoxalır. Ən çox sevdiklərimizi incidirik, üzürük... və sonradan suçluluq duyğusu və qürur qarşı-qarşıya gəlib "inkir-minkir sual-cavabına başlayır. Sonda hansı tərəf ağır gələcək?.. Bu zaman kəsiyində günahlarımızın bədəli olaraq itkilərimiz "doğulur".

Nə qədər qovsaq da o fikirləri,nə qədər "arxayın olsaq da ki, gedənlər qayıtmır", - günahımızı bilən adamlar artıq yoxdu, - desək də... vicdanımız şüuraltında həmişə sızıldayır.

Sərvaz müəllim,sizin şeirlərinizin məndə yaratdığı xaotik duyğu fırtınası hələ səngimiyib...Hələ telefon əlimdə,- redaktə etmədən,əvvəl yazdıqlarımın sonrakılarla uzlaşıb uzlaşmayacağını bilmədən...yazdım. Çünki, yazmağa ehtiyac hiss etdim...Şeirlərinizi təzədən oxusam bəlkə başqa təəssürat yaranacaq, bilmirəm.Bir onu bilirəm ki,şair şairi başa düşəcək və nə səhvi,nöqsanı olsa da bağışlayacaq.Sizə böyük yaradıcılıq uğurları,amma daha öncə qəlb rahatlığı,insan sevgisi,övlad məhəbbəti və ata sevinci,ata qüruru arzulayıram.

**Nübar ELDARQIZI**

Kredo .- 2022.- 8 iyun.- S.12.